

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 82 (20.983)

*5 may 2014-cü il, bazar ertəsi*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilmişdir





Mayın 4-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilmişdir.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalının iştirakçılarını salamlamış, təşkilatçılara təşəkkürünü bildirərək demişdir: "Şahmat zehni təfəkkürü formalaşdıran əvəzsiz vasitədir. O, insanın mənəvi-intellektual inkişafında mühüm dəyərə malikdir. Müdriklər şahmatın fəlsəfəsini təfəkkürün inkişafına xidmətlə əlaqələndirir, onu insan zəkasının gimnastikası adlandırırdılar. Azərbaycanda şahmatın inkişafı qədim tarixə malikdir. Zaman keçdikcə şahmat geniş yayılmış, idmanın aparıcı sahəsinə çevrilmişdir. ***"Şahmat insanı saflaşdıran və kamilləşdirən idman növüdür"***, – deyən ümummilli liderimiz Heydər Əliyev istər ötən əsrin 70-ci illərində, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra şahmatın inkişafını daim diqqət mərkəzində saxlamışdır. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda şahmata maraq kütləvi xarakter almış, onun maddi-texniki bazası gücləndirilmişdir".

Ali Məclisin Sədri demişdir: "Bu gün də Azərbaycanda şahmatın inkişafı və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" şahmatın inkişafına, onun maddi-texniki və kadr potensialının gücləndirilməsinə göstərilən qayğının parlaq ifadəsidir. Dövlət proqramının icrası istiqamətində ardıcıl iş görülmüş, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmat infrastrukturu təkmilləşdirilmişdir. Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində isə şahmat məktəbləri tikilib istifadəyə verilmişdir. Hazırda gənclərin şahmatla məşğul olması üçün hərtərəfli şərait yaradılmışdır. Muxtar respublikada 293 qrupda 3 mindən çox məktəbli xüsusi proqram əsasında şahmatla məşğul olur. Eyni zamanda muxtar respublikanın ümumtəhsil məktəblərində də şahmat fənni tədris edilir. Muxtar respublikada şahmat üzrə keçirilən beynəlxalq yarışlar da şahmatın inkişafına öz təsirini göstərir".

Ali Məclisin Sədri Naxçıvanda start götürən şahmat festivalına xüsusi əhəmiyyət verdiyini, intellekt və zəka sahiblərinin öz hünərlərini yüksək səviyyədə nümayiş etdirəcəklərinə inandığını bildirmiş, "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalını açıq elan etmişdir.

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, bu gün ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanda idmanın maddi-texniki bazası möhkəmləndirilir, idmançılarımız nüfuzlu beynəlxalq yarışlarda layiqli qələbələr qazanırlar. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-idman siyasətinin bəhrəsidir.

Beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov çıxış edərək ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına göstərilən diqqət və qayğıdan danışmış, turnir barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalında 9 ölkədən 300-dən artıq şahmatçı iştirak edir. Turnir üç yarımqrupda keçiriləcəkdir. Şahmatçılar şəxsi əmsallarına görə "A", "B" və "C" qruplarında mübarizə aparacaqlar. Beynəlxalq festival 9 turdan ibarət olacaq və mayın 12-də yekunlaşacaqdır. Yarışda keçmiş dünya və Avropa çempionları, 22 beynəlxalq qrossmeyster, 15 beynəlxalq şahmat ustası və 6 FİDE ustası iştirak edirlər. Muxtar respublikanı festivalda 66 şahmatçı təmsil edir.





Sonra festivalın püşkü atılmışdır.

Açılış mərasimində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri konsert proqramı ilə çıxış etmişdir.

Həmin gün Naxçıvan şəhərindəki Şahmat Mərkəzində "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalı start götürmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda keçirilən növbəti iməcilikdə yaşıllıqlara qulluq göstərilmişdir





Yaşıllıq zəngin oksigen mənbəyi olmaqla yanaşı, həm də ekoloji tarazlığı qoruyan etibarlı sipərdir. Naxçıvanın təbii gözəlliklərini qorumaq, təbiətini zənginləşdirmək məqsədilə keçirilən iməciliklər bu baxımdan mühüm əhəmiyyət daşıyır. Hər il muxtar respublikada yüz hektarlarla yaşıllıq zolaqları və meyvə bağları salınır, ana təbiətin simasına yeni naxışlar vurulur. Salınan meyvə bağları artıq öz bəhrəsini verir, ağaclar bara dolur. Ona görə də bu yaz günlərində iməciliklər davam etdirilir,

*Ardı 2-ci səhifədə*

becərmə və qulluq işləri aparılır.

Mayın 3-də muxtar respublikamızda keçirilən iməciliklər yenə də öz mütəşəkkilliyi ilə yadda qalmış, meyvə bağlarına və yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri “Əshabi-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinin yaxınlığındakı meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

İməcilik keçirilən ərazinin sahəsi 3,5 hektardır. Ötən iməciliklər dövründə bura 3 minə yaxın müxtəlif meyvə tingləri və üzüm əkilmişdir. İndi yol boyunca uzanan bu meyvə bağı əraziyə xüsusi gözəllik verir. İməcilik iştirakçıları ağaclara aqrotexniki qulluq göstərmiş, suvarma işləri aparmış, ətrafda səliqə-sahman yaratmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

WWF for a living planet®

WWF Caucasus
Programme Office
M. Aleksidze Street 11
0193 Tbilisi, Georgia

Tel: + 995 32 223 75 00
Fax: + 995 32 223 75 01
office@wwfcaucasus.org
www.panda.org/caucasus

**Господину Васифу Юсифовичу Талыбову**
**Председателю Верховного Меджлиса**
**Нахчыванской Автономной Республики**

50, Проспект Гейдара Алиева
Аз 7000 Нахчыван
Республика Азербайджан

23 Апреля 2014 г.

**Глубокоуважаемый Господин Талыбов,**

В нашем письме от 07 ноября 2012 г мы сообщили Вам о нашем благотворном сотрудничестве с природоохранными ведомствами и научными организациями Нахчыванской Автономной Республики. Действующий в автономной республике около 10 лет мораторium на охоту, создание и усиление Особо Охраняемых Природных Территорий, мероприятия по информированию местного населения, исследование и мониторинг природных комплексов уже дают свои ощутимые плоды. Результаты мониторинга биоразнообразия, проводимого в сотрудничестве с Институтом Биоресурсов Нахчыванского отделения НАН Азербайджана под руководством членкора НАНА Тариеля Талыбова, в Зангезурском Национальном Парке имени академика Гасана Алиева, показывают положительную тенденцию в динамике популяций редких и исчезающих видов. Так в течение прошлого года фотоловушки, установленные в национальном парке сотрудниками института, зафиксировали 3 индивида Кавказского леопарда, подвида находящего на грани исчезновения во всем его ареале. Лучшим успехом можно считать зафиксированную видеокамерами семейную пару этого грациозного хищника, что вселяет надежду на скорое появление их потомства в национальном парке. Помимо леопарда фотоловушки свидетельствуют об увеличении численности других краснокнижных видов: дикобраза, степного кота, рыси, безоарового козла, муфлона, каспийского улара и т.д.

Все эти факты еще раз подтверждают правильность природоохранной политики, проводимой Вами в Нахчыванской Автономной Республике.

Мы выражаем Вам глубокую признательность за поддержку наших инициатив, искренно надеемся на плодотворное сотрудничество в будущем и желаем Вам успехов в этом благородном деле охраны окружающей среды для будущих поколений.

С глубоким уважением,

Гиорги Санадирадзе
Директор Кавказского Представительства
Всемирного Фонда Дикой Природы (WWF)

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Cənab Vasif**
**Yusif oğlu Talıbova**

Çox hörmətli Cənab Talıbov!

Sizə ünvanladığımız 07 noyabr 2012-ci il tarixli məktubumuzda Naxçıvan Muxtar Respublikasının təbiəti mühafizə və elmi təşkilatları ilə faydalı əməkdaşlığımız haqqında məlumat vermişdik. Muxtar respublikada ova qoyulmuş moratoriumun 10 ilə yaxın müddətdə fəaliyyətdə olması, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Tariyel Talıbovun rəhbərliyi altında AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə birgə əməkdaşlıq şəraitində Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir. Belə ki, keçən il ərzində institut əməkdaşları tərəfindən Milli Parkda quraşdırılmış fototələlər, bütövlükdə, arealda kökü kəsilməkdə olan Qafqaz bəbirinin 3 fərdini qeydə almışdır. Bu nadir vəhşi növünə mənsub ailə cütlüyünün videokameralarla qeydə alınmasını ən böyük uğur hesab etmək olar. Bu fakt Milli Parkda onların nəslinin tezliklə artacağına ümidlər yaradır. Bəbirlə yanaşı, fototələlər “Qırmızı kitab”a düşmüş digər növlərin, o cümlədən oxlu kirpi, çöl pişiyi, vaşaq, bezoar keçisi, muflon, Xəzər uları və sairənin miqdarının artdığını da sübut edir.

Bütün bu faktlar Naxçıvan Muxtar Respublikasında Sizin tərəfinizdən həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir.

Bizim təşəbbüslərimizi dəstəklədiyinizə görə Sizə dərin minnətdarlığımızı bildirir, bundan sonra da səmərəli əməkdaşlıq edəcəyimizə səmimi-qəlbdən ümidlər bəsləyir və gələcək nəsillər üçün ətraf mühitin qorunub saxlanılması kimi nəcib işdə Sizə uğurlar arzulayırıq.

**Dərin hörmətlə,**

**Giorgi Sanadiradze**
**Ümumdünya Vəhşi Təbiəti**
**Mühafizə Fondunun Qafqaz**
**Təmsilçiliyinin direktoru**

***Bu günlərdə akademiklər İ.Ə.Həbibbəyli, İ.M.Hacıyev, əməkdaşlardan F.Y.Səfərli, Q.İ.Qədirzadə, V.B.Baxşəliyevin redaktəsi ilə qədim dövrlərdən XVIII əsrin 40-cı illərinədək “Naxçıvan tarixi”nin birinci cildi çapdan çıxmışdır. Nəşrin hazırlanmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması” (6 dekabr 2005), “Naxçıvan tarixi”nin çoxcildliyinin hazırlanması ilə əlaqədar (6 avqust 2012) sərəncamları diqqəti xüsusilə cəlb edir. Bu sərəncamlardan irəli gələn vəzifələrə uyğun olaraq, ilk dəfə “Naxçıvan tarixi” çoxcildliyinin I cildi işıq üzü görmüşdür.***

# Naxçıvan – Azərbaycanın qədim mədəniyyət mərkəzi

Naxçıvanın arxeoloji, tarix və mədəniyyət abidələri ilə zəngin diyar olduğu Qazma, Kilit, Daşqala, Ərməmməd mağaraları, II Kültəpə, Sədərək, Ovçular təpəsi, Xələc, Duzdağ, Şahtaxtı yaşayış yerləri, Oğlanqala, Çalxanqala, Govurqala, Sədərək, Qazançı və Nəhəcir qalaları, Gəmiqaya abidələri, Əshabi-Kəhf dini-tarixi memarlıq kompleksi, qala şəhərlər və müdafiə istehkamları qədimdən insanların burada yaşadığını təsdiq edir. Naxçıvan ərazisinin qədim sakinlərinin minilliklər ərzində zəngin mədəni irs qoyub getmələri, bu irsin müxtəlif tarixi qaynaqlar – maddi və yazılı abidələr əsasında öyrənildiyi göstərilir.

Diyarın maddi-mənəvi abidələri, mədəniyyəti, insanların məişət və həyat tərzi, dünyagörüşü, iqtisadi və mədəni əlaqələrinin öyrənilməsində arxeologiyanın əhəmiyyəti xüsusi qeyd edilir. Tədqiqat zamanı aşkara çıxarılan arxeoloji nümunələr qədimdən son orta əsrlərədək Naxçıvan tarixi əsaslı şəkildə öyrənilmişdir.

Təkcə arxeologiyanın köməyi ilə qədim dövrün bütün məsələlərini öyrənmək qeyri-mümkün olduğu üçün etnoqrafik, numizmatik materiallardan, onomastik vahidlərindən, antropoloji materiallardan, yazılı qaynaqlardan da istifadə edilmişdir.

Kitabı vərəqlədikcə qaynaqlara ehtiyatla yanaşıldığı, təsadüfi, ziddiyyətli xarakter daşıyan, həmişə dəqiqliyi ilə fərqlənməyən faktlara münasibət bildirildiyi, “qaynaqların və mövcud ədəbiyyatın araşdırılmasının Naxçıvan tarixinin obyektiv elmi şəkildə işlənib hazırlanması üçün misilsiz köməyi görünür”. Müəllifi bəlli olmayan “Əcaib əd-Dünya” (“Dünyanın qəribəlikləri”), Övliya Çələbinin “Səyahətnamə”si, “Naxçıvan sancağının müfəssəl dəftəri”, ərəb və farsdili müəlliflərin əsərləri, avropalı alim, səyyah və diplomatların gündəlikləri Naxçıvan tarixinin tədqiqində və öyrənilməsində mühüm mənbə kimi əhəmiyyətli olmuşdur.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923) üzvləri V.M.Sısoyev və A.A.Millerin iştirakı ilə (1926) Xaraba Gilanda, Qızılburunda aparılmış arxeoloji qazıntıların materialları, 20-ci illərdə Y.A.Paxomov, R.İsmayılov, V.M.Sısoyev, T.S.Passek və V.A.Latinin, M.Mirheydərzadə, K.N.Smirnov, İ.İ.Meşşaninov, Ə.K.Ələkbərov və İ.Əzimbəyovun Naxçıvanda yerli tədqiqatçılarla birgə araşdırmaları, I, II Kültəpə arxeoloji qazıntılarından e.ə. VI-I və VII-I minilliklərə aid əldə edilmiş maddi-mədəniyyət nümunələrinin mövcud ədəbiyyatla müqayisəsi arxeoloqlara Naxçıvan haqqında söz deməyə imkan vermişdir.

Əsərdə müəlliflər Herodot, Strabon, K.Ptolomeyə istinad edərək, Azərbaycanı Ön Asiya, Kiçik Asiya və Xəzərdən şərqə tərəf türklərin ərazisini Mərkəzi Asiya adlandırmaqla, hər üç ərazinin Asiya türklərinin nəzarəti altında olduğunu göstərmişlər.

Tədqiqatçılar Naxçıvan tarixi ilə əlaqədar əcnəbi müəlliflərin bu istiqamətdə araşdırmalarını təhlil edərək “Naxçıvan” sözünün mənşəyinin Nuhla bağlı olduğunu göstərmişlər.

Əsərdə mənbələrə istinad edilərək Naxər ölkəsindəki əski tayfaların prototürklər olduğu qeyd edilir. As, Naxər, türükkü, kuti, lulubəy, su (su), tal, koman, tur, pal (pala), tus, doray və başqa boylar və tayfalar, onların arealı, Azərbaycan xalqının formalaşmasında oynadığı rol nəzərdən keçirilir. Oğuzlar, skif-sak, massaget və kimmerlər, şiraklar, qıpçaq, hun, xaçmataklar haqqında dolğun məlumat verilir.

Kitabda arxeologiyanın ilkin mərhələsi olan Eneolit dövründə qədim əkinçi-maldar tayfalarına aid bir sıra abidələrin aşkar edilməsi (O.H.Həbibullayev, V.Əliyev, R.Məmmədov), Naxçıvanın qədim tarixinin Cənubi Qafqazda Eneolit və ilkin əkinçilik mədəniyyətinin öyrənilməsi baxımından qiymətli olduğu, Cənubi Qafqazda mədəni-tarixi proses barədə elmi təsəvvürlərin xeyli dəyişdiyi qeyd edilir. Eneolit dövründə burada mədənçiliyin mövcudluğu, e.ə. IV minillikdə Naxçıvanın dünyanın ən qədim duz çıxarılan mədənlərindən biri olduğu göstərilir.

Naxçıvan Orta Tunc dövründə Azərbaycanın cənubu – Urmiya hövzəsi daxil olmaqla, Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni bölgəyə daxil olmuşdur. Boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilmiş, e.ə. II minilliyin ikinci yarısı – I minilliyin başlanğıcı, Cənubi Qafqazda Son Tunc dövrü, Dəmir dövrünün başlanğıcında Naxçıvan ərazisində yeni qalaların yaradılması bildirilir, e.ə. IX-VI əsrlərdə Oğlanqala Dəmir dövründə kiçik bir şəhər dövlətinin paytaxtı olaraq urartululara qarşı mübarizədə ən böyük qalalardan biri kimi göstərilir.




Əsərdə açıq səma altında özünəməxsus şəkil qalereyası olan Gəmiqaya qayaüstü təsvirləri Naxçıvanın Tunc dövrü mədəniyyətinin görkəmli abidəsi kimi e.ə. V-I minilliklərə aid edilir. Təsadüfi deyildir ki, əsərdə Naxçıvanda şəhərtipli yaşayış yerlərinin 5 min il bundan əvvəl formalaşdığı qeyd edilir. Bu da hər bir azərbaycanlıda qürur hissi doğurur.

Naxçıvanın (e.ə.IV-b.e.III) Atropatena dövlətinin tərkibinə daxil olması, tarixin müəyyən mərhələlərində Naxçıvanın Syunik knyazlığı tərkibində olması, əhalinin 12 vilayətdə məskunlaşaraq türk dilinin müxtəlif ləhcəsində danışması etnik-mədəni və siyasi baxımdan daha çox bu dövlətlə bağlılığı qeyd olunur.

E.ə. I-b.e. II əsrlərində massagetlərin Naxçıvana yürüşləri ilə yanaşı, sarmatların, alanların hücumları vaxtı Naxçıvan əhalisinin – marlar, utilər, peçeneqlər, çovdeylər və türkdilli qəbilələrin onlara qarşı mübarizə tarixi vurğulanır.

Kitabda Naxçıvan əhalisi içərisində ictimai bərabərsizliyin güclənməsi, insanların dini inancları və mədəniyyət nümunələri, eyni zamanda əhalinin etnogenezi, etnik tərkibi və “Naxçıvan” sözünün mənşəyi nəzərdən keçirilir.

Onomastik materiallar Erkən orta əsrlərdə burada hun, xəzər, sabir, bolqar, peçeneq, oğuz, suvar, xunı və onlarca digər türkdilli tayfaların məskunlaşması qədim türkdilli tayfalar tərəfindən mədəniyyətin yaradılması, bu tayfaların regionun ictimai-siyasi həyatındakı rolu göstərilməklə Naxçıvanın Azərbaycanda əsas ticarət mərkəzlərindən biri olması, Yaxın Şərqdə və Qafqazda iqtisadi, mədəni əlaqələrin daha da genişlənməsində vacib rol oynadığının göstərilməsi diqqəti cəlb edir.

Naxçıvanın III əsrin ikinci yarısında Azərbaycanın siyasi tarixində geniş bir ərazini əhatə etməsi, tarixi torpaqlarımızın Sasani imperiyasının tərkibinə daxil edilməsi diqqətə çatdırılır. Naxçıvanda Sasani mərzbanlarının iqamətgahları yerləşdiyi şəhərlərdə sikkələrin zərb olunduğu bir dövrdə siyasi mənasını itirmiş, yalnız coğrafi adını saxlamış “Adurbadaqan – Azərbaycan” məfhumunun ilk dəfə Arazdan şimalda və cənubda yerləşən torpaqlarımızı özündə ehtiva edən vahid siyasi-inzibati məna kəsb etməsi diqqətə çatdırılır. Erkən orta əsrlərdə Naxçıvan əhalisinin sasanilər, Bizans və xilafətin işğalına qarşı mübarizə tarixi izlənir, əsərdə bəzi erməni tədqiqatçıların tarixi-memarlıq abidələri əsasında Naxçıvana qarşı irəli sürdükləri iddiaların tamamilə əsassız olduğu tutarlı faktlarla təkzib olunur.

Kitabda Naxçıvanın III-VII əsrlərdə Sasanilər dövləti ilə bağlı olması, II Şapurun (309-379) talançı yürüşlərinə məruz qalması, 387-ci il müqaviləsinə görə, Naxçıvanın Cənubi Qafqazda sasanilərin əsas dayaq məntəqəsinə çevrilməsi öz əksini tapmışdır. Əsərdə ermənilərə və onların havadarları – ingilis alimləri Devid Rol, Devid Lenq və Aleksandr Svarantsa Azərbaycanın tanınmış şərqşünas tarixçisi akademik Nailə Vəlixanlıya istinad edərək tutarlı elmi cavab verilməsi, Naxçıvanın tarixən Azərbaycanla bağlılığı, buradakı əhalinin isə indiki Azərbaycan türklərinin ulu babaları olması digər mənbələr əsasında sübuta yetirilir.

Diqqəti cəlb edən məqamlardan biri də Naxçıvan tarixindən bəhs edilən, elmi baxımdan az əhəmiyyət kəsb etməyən əcnəbi tədqiqatçıların əsərlərinin tədqiqata cəlb edilməsidir.

Naxçıvanda feodal münasibətlərinin erkən (III-V əsrlərdə) yarandığı vurğulanır, III əsrdən kənd icmalarında təbəqələşmənin və onların bir qisminin feodallardan asılı vəziyyətə düşməsinin IV-VII əsrlərdə davam etdiyi göstərilir.

Erkən orta əsrlərdə türk tayfalarının Naxçıvanda məskunlaşmaları hun, bolqar, xəzər,

Ardı 3-cü səhifədə

kəngər, sabir, peçeneq, suvarların yenidən Naxçıvanda məskunlaşmaları barədə fikirlər elmidir, qaneedicidir.

Xilafətin zəifləməsi nəticəsində Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin meydana gəlməsi ilə əlaqədar gətirilmiş faktlar oxucuda maraq doğurur.

Əsrdə Naxçıvanın Babəkin başçılıq etdiyi azadlıq mübarizəsinin əsas mərkəzlərindən birinə çevrilməsi, IX əsrin sonunda xilafətin siyasi-iqtisadi dayaqlarının zəifləməsi nəticəsində Naxçıvan ərazisinin əvvəlcə Sacilər, sonra isə Salarilərin tərkibinə daxil olması qeyd edilir. Əsrin sonuna yaxın ölkədə yaranmış siyasi vəziyyət zəminində Naxçıvanda müstəqil dövlət qurumu, yaxud feodallıq – Naxçıvanşahlığın yaranması, 80 ilə yaxın mövcudluğu barədə fikrin gerçəkləşməsi üçün faktların elmi dövriyyəyə gətirilməsi diqqəti çəkir. Bu baxımdan Müaviyənin Übeyd ibn Şəriyyə ilə söhbətləri diqqəti daha çox cəlb edir. Müaviyə Übeyddən Azərbaycan haqqında məlumat istədikdə o, belə cavab verir: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər".

VII əsrin ortalarında Naxçıvanın ərəblər tərəfindən tutulması və 652-653-cü illərdə işğalın başa çatması, xilafətin əsas hərbi və inzibati mərkəzlərindən birinə çevrilməsi, bu ərazinin Böyük İpək Yolunda strateji keçid məntəqəsi olması və epiqrafik abidələrin icmalı ilə əsaslandırılır.

Bu cilddə Səlcuq türklərinin Naxçıvana yiyələnməsi, Azərbaycan canişinlərinin iqamətgah kimi Naxçıvanda yerləşməsi qeyd olunur. Bu dövrdə Naxçıvanın iqtisadi həyatı təhlil edilir, kənd təsərrüfatının vəziyyəti, torpaq mülkiyyəti formaları, sənətkarlıq, ticarət, şəhərləri və mədəniyyəti haqqında kifayət qədər aydın təsəvvür yaradılır.

Böyük Səlcuq imperiyasının yaranması ilə dünya tarixində ciddi dəyişikliklərin olması, Səlcuq hökmdarı Toğrul bəyin varisi Alp Arslanın Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cü ildə Naxçıvana yiyələnməsi, Səlcuqların Azərbaycandakı canişininin Naxçıvanda yerləşməsi xüsusi vurğulanır. Səlcuq dövlətinin tənəzzülü dövründə yeni dövlət birləşməsinin – Atabəyliklərin təşəkkülü üçün zəmin yaranması, 1136-cı ildə Şəmsəddin Eldəniz tərəfindən əsası qoyulan Azərbaycan Atabəylər dövlətinin dövrün qüdrətli və mədəni dövlətlərindən olduğu göstərilir. Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Şəmsəddin Eldəniz hələ Aranın əmiri olanda Naxçıvanı özünə iqamətgah seçmişdi. O, 1153-cü ildə Sultan Məhəmmədə yazdığı məktubda bildirmişdi ki, "əgər sultan öz yanında xidmət etməyi gərəkli sayırsa, onun qulluğuna böyük bir el, saysız-sırasız qoşun ilə hazırdır".

Beləliklə, Şəmsəddin Eldənizin məktubu Aranın hərbi potensialını sənədləşdirən bir göstərici sayıla bilər. Həqiqətən, belə olmuşdur. Eldəniz oğulluğu Arslan şahı İraq sultanlığının taxtına çıxarmaq üçün hərbi, siyasi, diplomatik baxımdan həlledici rol oynadığı, Naxçıvan şəhəri və vilayətinin Eldəniz nəslinin irsi "iqta"sına çevrildiyi, XII əsrin 30-70-ci illərində Naxçıvanın Atabəylər dövlətinin mərkəzi şəhəri – paytaxtı olduğu qeyd olunur.

Naxçıvan dünyaya görkəmli alimlər, memarlar bəxş etmişdir. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin tərkibində xeyli inkişaf etmiş və 1136-1175-ci illərdə dövlətin mərkəzi olmuşdur. XII-XV əsrlərdə Naxçıvan mədəniyyətinin inkişaf mərhələləri araşdırılır. Eldənizlərdən sonra bir müddət Naxçıvanı Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnu idarə edir.

1258-ci ildə Naxçıvanın Hülakülər dövlətinə tabe edilməsi, dövlətlərarası müharibələrdən xeyli ziyan çəkməsi, ərazisinin vilayətlər və 9 tümənə bölünməsi, Naxçıvanın Qaraqoyunlu və Ağqoyunlular dövrünün ictimai-iqtisadi həyatında mühüm rol oynaması nəzərdən keçirilir, sufiliklə bağlı mərkəzlərdən olan xanəgahlar, zaviyyələr və sufi təriqətləri haqqında ətraflı məlumat verilir, Hürufilik təlimi, onun mahiyyəti, rolu açıqlanır. Əsrdə Naxçıvanın Səfəvilər dövrü tarixinin təhlilinə xüsusi yer ayrılmış, Səfəvilərin 1501-1576-cı illərdəki siyasi vəziyyəti Səfəvi – Osmanlı müharibələrinin araşdırılmasına ciddi önəm verilmiş, Naxçıvanın sosial-iqtisadi və mədəni həyatına ağır zərbələrlə yanaşı, bu müharibələr iki böyük türk dövlətinin faciəsi və Qərb diplomatiyasının qələbəsi kimi səciyyələndirilir. XIII-XIV əsrlərdə, həqiqətən, Naxçıvan bölgəsinin Azərbaycanın iqtisadi-mədəni mərkəzlərindən birinə çevrildiyi göstərilir. Yaxın Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslər əsər boyu izlənir. Naxçıvanın Hülakülər, Çobanilər və Cəlairlərin nüfuz dairəsinə daxil olduğu, Əmir Teymurun Azərbaycana yürüşləri və Naxçıvanda – Əlincəqalada ona göstərilən müqavimət barədə geniş söhbət açılır.

I İsmayılın və I Təhmasibin vəfatından sonra rumlu, təkəli, şamlı, zülqədər, ustaclı tayfaları arasında hakimiyyət çəkişmələri, XVI əsrin sonu, XVIII əsrin I yarısında siyasi vəziyyət təhlil edilir. Əhali arasında narazılığın artması, Naxçıvan sancağı üzrə 393 yaşayış məskənindən 269-nun əhalisinin öz yerlərini tərk etməsi, Naxçıvanın siyasi vəziyyəti, Səfəvilər dövlətində iqtisadi-mədəni tənəzzülün dərinləşdiyi, 1736-cı ildə Nadir Əfşarın, Naxçıvan da daxil olmaqla, Azərbaycan torpaqlarını osmanlılardan azad etməsi, Naxçıvanda kənd təsərrüfatı, əkinçiliyin, bağçılıq, bostançılıq və texniki bitkilərin, üzümçülüyün inkişafının lazımi səviyyədə olması konkret faktlarla göstərilir.

XVIII əsrin 20-ci illərində Rusiyanın Xəzərsahili torpaqları işğal etməsi, Azərbaycan ərazisinin bir hissəsinin – Naxçıvan və Ordubadın osmanlılara verilməsi, Naxçıvan ərazisinin çox hissəsinin yeni təşkil olunmuş sancağın tərkibinə daxil edilməsi, 1735-ci ildə Azərbaycanın digər əraziləri kimi, Naxçıvanın Nadir şahın hakimiyyəti altına keçməsi ətraflı şərh edilir.

Tədqiqatların əksəriyyətində təkcə islamaqədər yox, hətta xristianlaşmaya qədər və xristianlaşma zamanı indi "Ermənistan" adlanan bölgənin əsas entosunun türklər olduğu, "Ermənistan" termininin isə türkcə "Yuxarı ellər" anlamında işləndiyi çoxsaylı mənbələr əsasında sübut edilmişdir. Sonrakı dövrlərdə bütün tarixi mənbələrdə onların Anadoluya və indi yayıldıqları əraziyə gəlmə olduqları təsdiq edilmişdi.

Tanınmış türk tarixçisi Əhməd Zəki Vəldi Toğan "Azərbaycan" adlı əsərində çoxsaylı mənbələrə söykənərək ərəblərin yürüşünə qədər Azərbaycanda aparıcı etnosun türk toplumları olduğunu geniş şəkildə şərh etmişdir.

Akademik Ziya Bünyadov yazırdı ki, aparılan arxeoloji qazıntılar zamanı Azərbaycanın Naxçıvan şəhəri ərazisində o dövrə dair heç bir kilsə və xristianlığa məxsus digər tikililərin qalıqları aşkar edilməmişdir.

Qeyd etmək lazımdır ki, kitabda müstəqillik illərində qədim Naxçıvanın öyrənilməsində yeni mərhələnin başlanıldığı xüsusilə vurğulanır.

Ümumən, Naxçıvanın xilafət və Atabəylər dövrü, XVIII əsrin 40-cı illərinə qədər sosial-iqtisadi həyatı barədə oxucuda geniş təsəvvür yaratmaq üçün akademiklər Ziya Bünyadov, İsa Həbibbəyli, İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvləri Yaqub Mahmudov, Məşədixanım Nemətova və professor Kərim Şükürovun əsərlərinin, orta əsr mənbələrinin, xüsusilə "İrəvan əyalətinin icmal dəftəri", "Naxçıvan sancağının müfəssəl dəftəri" və digər mənbələrin əhəmiyyəti xüsusi qeyd edilir.

Belə mötəbər mənbələrə söykənən və yüksək elmi-nəzəri səviyyədə yazılmış "Naxçıvan tarixi"nin ilk cildi fundamental nəşr kimi oxucuların sevincinə səbəb olmuşdur. Onu Azərbaycan MEA Naxçıvan Bölməsi əməkdaşlarının, xüsusən akademik İsmayıl Hacıyevin böyük uğuru hesab etmək olar.

**Süleyman MƏMMƏDOV**
***Dövlət mükafatı laureatı,***
***Əməkdar elm xadimi, professor***
***"Xalq qəzeti", 4 may 2014-cü il***

---

*Abbasqulu ağa Bakıxanov – 220*

## Abbasqulu ağa Bakıxanovun gəncliyə nəsihətləri...

***Azərbaycan xalqının yetirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Abbasqulu ağa Bakıxanov 1794-cü il iyun ayının 21-də Bakı şəhəri yaxınlığındakı Əmircan kəndində varlı bir ailədə anadan olmuşdur. 1819-cu ilədək Qubada, Əmsar kəndində yaşayan A.Bakıxanov 1819-cu ildə general Yermolovun dəvəti ilə Tiflisə gələrək Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcümanı vəzifəsinə qəbul olunmuş, 26 il bu vəzifədə çalışmışdır. Ensiklopedik biliyə malik A.Bakıxanovun Azərbaycan, rus, ərəb və fars dillərində yazdığı əsərlər onun elm dəryasına vaqif olduğunun ən böyük sübutudur.***

Abbasqulu ağa Bakıxanovun yazdığı çoxsaylı əsərlər onun Azərbaycanın fikir tarixində nə kimi rola malik olduğunu göstərməkdədir. O, "Gülüstani-İrəm" əsərində Dağıstan, həmçinin Azərbaycan tarixindən,"Riyazül-qüds"də 14 məsum və Əhli-Beytdən, "Təhzibül-əxlaq"da yunan, İslam və Avropa müəlliflərinin əsərlərindən istifadə etməklə əxlaqi dəyərlərdən, "Eynül-mizan"da məntiqdən, "Mişkatül-ənvar"da mənzum hekayələrin dili ilə əxlaqdan, "Kəşfül-qəraib"də Amerikanın kəşf edilməsi və onun coğrafi təsvirindən,"Qanuni-qüdsi" də fars dilinin qayda-qanunları və qrammatikasından, "Kitabi-Əsgəriyyə"də dəmirçi oğlu Əsgər adlı bir gəncin hekayəsindən bəhs edir.

Bədii ədəbiyyat insanın mənəvi-estetik inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir. N.Çernışevskinin qeyd etdiyi kimi, elmi ədəbiyyat insanları nadanlıqdan, bədii ədəbiyyat isə kobudluq və bayağılıqdan xilas edir.

Ədəbiyyatın tərbiyəvi əhəmiyyətini çox gözəl bilən A.Bakıxanov öz əsərlərində tərbiyəvi əhəmiyyət daşıyan fikirlərə daha çox yer vermişdir.

Böyük rus tənqidçi-ədəbiyyatşünası V.Q.Belinski fikrini belə ifadə edir: "Ədəbiyyat və tərbiyə – bu iki məfhumu Günəş və işıq, həyat və fəaliyyət məfhumları kimi bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir". Bəli, ədəbiyyat insanların kamilləşməsi, mənən təmizlənməsi baxımından əvəzsiz vasitədir. Tərbiyəvi mahiyyət daşıyan ədəbi nümunələr insanların fikir dünyasını inkişaf etdirməkdə xüsusi əhəmiyyət kəsb edir. Biz Xaqani Şirvani, Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani və başqa klassiklərimizin yaradıcılığında da bu tərbiyə mövzusuna rast gəlirik. Nəzərə çatdırmağı lazım bilirik ki, həmin nümunələrdə söylənən nəsihətamiz fikirlər ümumbəşəri xarakter daşımaqdadır; bu nəsihətləri əxz edib həyatımızda tətbiq edə bilmək insanlığın qələbəsi deməkdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra gənclərin milli ruhda tərbiyə olunmasına dövlətimiz xüsusi qayğı göstərir. Milli ruhda tərbiyə isə milli dəyərlərimizin öyrənilməsi və yaşadılmasında göstərilən xidmətlə mümkündür. Qloballaşmanın sürətlə getdiyi indiki zamanda milli dəyərlərin qorunub saxlanması mühüm əhəmiyyət kəsb edir.

Abbasqulu ağa Bakıxanov mahir pedaqoq kimi uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar əsərlər yazmışdır ki, bunlardan biri "Təhzibül-əxlaq", digəri isə "Kitabi-nəsihət"dir. "Təhzibül-əxlaq" əsərini Abbasqulu ağa Bakıxanovun əsas əxlaqi-fəlsəfi əsəri hesab etmək olar. Bu əsərdə o, cəmiyyət haqqındakı fikirlərini bir sistem şəklində şərh edərək gənclər arasında nəcib əxlaq normalarını, onun gözəl cəhətlərini təbliğ edir. Əsər müqəddimə, xülasə və 12 fəsildən ibarətdir. Müqəddimədə kitabın ya-



zılma səbəbləri və hikmət qanunları, xülasədə isə bilik əldə etməyin sirləri haqqında danışılır. O, əsərdə faydalı məsləhət və nəsihətləri ilə oxucunu düz yola dəvət edir, onu əməyə rəğbət bəsləməyə, dostluğa sədaqət göstərməyə, böyüklərə hörmət etməyə və ədalətli olmağa çağırır, dünyəvi əxlaq cəbhəsində duraraq ümumbəşəri əxlaq normalarını təbliğ edir.

"Təhzibül-əxlaq" müəllifin pedaqogika və psixologiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsəridir. "Təhzibül-əxlaq" əsərinin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək, onlara nəcib və gözəl əxlaqi normaları mənimsətməkdir. Müəllifin fikrincə, şəxsiyyətin bütövlüyü vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq Vətənə və xalqa məhəbbətlə ölçülür.

"Təhzibül-əxlaq"dan sonra Abbasqulu ağa Bakıxanovun ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. "Kitabi-nəsihət"də 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Dini nəsihətlərdən sonra dövlət başçısına, ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyinə aid, daha sonra isə həyat və məişət məsələləri ilə əlaqədar olan əxlaqi nəsihətlər verilir. Uşaqların əxlaqını yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

A.Bakıxanov bu əsərdə öz həyat təcrübəsini sistemləşdirmişdir. Şagirdləri A.Bakıxanovun nəsihətamiz fikirləri üzərində düşündürmək, müstəqil fikir ifadəsinə nail olmaq, bizcə, onların tərbiyəsinə müsbət təsir göstərər. Nümunə kimi onlardan bəzilərini nəzərdən keçirək:

*– Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyüksə, ona hörmət elə, ta ki səndən kiçiklər də sənə hörmət etsinlər…*

*– Elə adamlarla otur-dur ki, böyüklər onları yaxşı hesab edirlər. Hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan.*

*– Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.*

*– Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər.*

Bu nəsihətlərlə yola çıxan hər bir insan, belə demək mümkünsə, şərəfli ömrün xəritəsini əldə etmiş olar. Bu mənada Abbasqulu ağa Bakıxanovun əsərləri xüsusilə şagirdlərimiz arasında təbliğ edilməlidir.

Qeyd edə bilərik ki, Abbasqulu ağa Bakıxanovun nəsihətləri, öyüdləri onun fikir dünyasının zənginliyinə sübutdur. Onun bu nəsihətləri illər keçməsinə baxmayaraq, gənclərlə birlikdə hər yaşın nümayəndəsinə doğru yolu göstərmək baxımından əhəmiyyətlidir.

**Nərgiz İSMAYILOVA**

---

*"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Qızlar Liseyi şagirdlərinin iştirakı ilə açıq dərs keçilmişdir.*

## "Naxçıvanqala"da açıq dərs

Açıq dərsdə liseyin tarix müəllimi Səkinə Allahverdiyeva "Nuh yurdu – Naxçıvan" mövzusunda danışmışdır. Bildirilmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim tarixə malik bir diyardır. Bu diyar zəngin mədəniyyətə malik olmaqla bərabər, həm də bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin də vətənidir. Qədim dövrlərdə və orta əsrlərdə Naxçıvanın tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh Peyğəmbərin Naxçıvanla bağlılığı haqqında məlumat versələr də, sovetlər dövründə bu yazılı mənbələrdən istifadəyə icazə verilməmişdir. Yalnız ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli tariximizin qədim səhifələrinin öyrənilməsinə başlanılmış, Naxçıvanın Nuh Peyğəmbərlə bağlılığı elmi mənbələr əsasında sübut edilmişdir. Qeyd olunmuşdur ki, rus tədqiqatçısı Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş, onun dəqiq yerini göstərmişdir. Görkəmli rəssam Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh Peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür.

Vurğulanmışdır ki, bütün bu tutarlı mənbələr hesabına Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 28 iyun 2006-cı il tarixli Sərəncamı ilə Nuh Peyğəmbərin məzarüstü türbəsi bərpa edilmişdir.

Sonra şagirdlər kompleksə yaxından tanış olmuşlar.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda sərbəst güləş üzrə beynəlxalq yarış keçirilir





Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş gənclər (1994-1996-cı illər təvəllüdlü) arasında sərbəst güləş üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq yarışa start verilib. Yarışın reqlamentinə əsasən, 2 yarımqrupda 8 komanda öz qüvvəsini sınayıb. Azərbaycan və Naxçıvan güləşçiləri ilə yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Gürcüstan və Ukrayna güləşçilərinin mübarizə apardığı yarışda artıq finala yüksələn komandaların adlarına aydınlıq gəlib.

Yarışda "A" qrupunda qərar tutan Azərbaycan millisi qrup qarşılaşmasını tam üstünlüklə başa vurub. Türkiyə, Qazaxıstan və Özbəkistan komandalarını üstələyən güləşçilərimiz finalda "B" qrupunun lideri ukraynalı həmkarları ilə qarşılaşacaqlar. Bu qrupda Ukrayna komandası Naxçıvan, Rusiya və Gürcüstan güləşçilərini arxada qoymağı bacarıb.

Bu gün ilk olaraq 7-8-ci yerlər uğrunda Özbəkistan və Gürcüstan komandaları qarşılaşacaqlar. Ardınca isə naxçıvanlı pəhləvanlar türkiyəli həmkarları ilə 5-6-cı yerlər üçün mübarizə aparacaqlar. Günün ikinci yarısında tamaşaçılar medalları hansı komandaların qazanacaqlarına şahidlik edəcəklər. Əvvəlcə meydana 3-cü yer uğrunda Qazaxıstan və Rusiya komandaları çıxacaqlar. Həlledici qarşılaşmada isə Azərbaycan güləşçiləri ukraynalı həmkarları ilə güləşəcəklər.

Dünən idmançılar muxtar respublikanın gəzməli, görməli yerlərində olmuş, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksini ziyarət etmiş, Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olmuşlar.

✍ **Ceyhun MƏMMƏDOV**



# Naxçıvan bir şahmatçı üçün ideal məkandır

***Mayın 4-dən Naxçıvan mötəbər bir şahmat bayramına – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə keçirilən "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalına ev sahibliyi edir. Hakimlərin və iştirakçıların maraqlı fikirlərini oxucularımızla bölüşməyi peşə borcu bildik:***

***Yarışın baş hakimi, beynəlxalq dərəcəli hakim Faiq Həsənov:***



– Gənclərin mənəvi tərbiyəsində, zehni inkişafında mühüm vasitə olan şahmat Azərbaycanda yüksək templə inkişaf edən və çox sevilən bir idman növüdür. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan şahmatçılarını daim diqqət və qayğı ilə əhatə etmiş, onların peşəkarlıq səviyyələrinin yüksəlməsi üçün xüsusi sərəncamlar imzalamışdır. Bu prosesi uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" dünya ölkələri təcrübəsində şahmat idman növünün inkişafına yönəldilən ilk proqram kimi müasir idman tariximizə daxil olmuşdur. Bu qayğının nəticəsi olaraq, şahmatçılarımız dünya miqyaslı yarışlarda qazandıqları uğurlu nəticələrlə xalqımızı sevindirirlər. Azərbaycanın şahmat üzrə yığma komandası dünyanın ən güclü komandaları arasında ön sıralardadır. Bu yarış haqqında isə onu deyə bilərəm ki, blokadada olan muxtar respublikanın belə bir şahmat bayramına ev sahibliyi etməsi regionun sürətli inkişafından, şahmat idman növünə göstərilən yüksək dövlət qayğısından xəbər verir. Qeyd edim ki, yüksək reytinqli şahmatçıların iştirakına görə builki festival xüsusilə fərqlənir. "A" qrupunda yüksək reytinqli şahmatçılar yarışırlar. Azərbaycan yığmasının bir neçə üzvü istisna olmaqla, bütün heyət burada qüvvəsini sınayır. İsveçrə sistemi üzrə keçirilən yarışlarda güclülər ilk turda zəiflərlə yarışırlar. Maraqlı burasıdır ki, ötən il burada keçirilən yarışlarda reytinq əmsalı yüksək olan şahmatçılarla görüşlərdə reytinq əmsalı az olan Azərbaycan şahmatçıları yaxşı nəticə göstəriblər. Əksər görüşlər bərabərliklə başa çatmışdır. Azərbaycan şahmatçısı Gülnar Məmmədova keçmiş dünya çempionu Xalifmanla yarışmışdı. Xalifman özü etiraf etdi ki, o, oyunu rəqibinə təslim etmək belə istəyib. Ancaq sonda Xalifman qalib gəldi. Bu da onu göstərir ki, yarışda təcrübə öz sözünü deyir. Ancaq bütün bunlara baxmayaraq, bu dəfə də gözlənilməz nəticələr ola bilər.

Bu gün burada Azərbaycan və digər ölkələrin ən yaxşı şahmatçıları qələbə uğrunda mübarizəyə başlayıblar. Anton Korobov, Denis Kismatullin, Rauf Məmmədov, Eltac Səfərli, Aleksandr Simanov, Pavel Smirnov, Qadir Hüseynov, Oleq Korneyev və onlarla təcrübəli şahmatçının bu yarışda iştirakı bir daha onu göstərir ki, bu festivala maraq böyükdür. Ötən illərdə festivala gələn şahmatçılar bu il də yarışlara böyük həvəslə qatılırlar. Builki festivalda Naxçıvan şahmatçılarından Talıb Babayev və Ürfan Sevdimalıyevdən yaxşı nəticələr gözləyirik.

Muxtar respublikanın bu qəbildən olan yarışların keçirilməsi sahəsində potensialı barədə isə onu deyə bilərəm ki, hələ 2003-cü ildə Naxçıvanda gənc şahmatçıların dünya çempionatı keçirilmişdi. Ötən illərdə keçirilən "Naxçıvan Open-2011", "Naxçıvan Open-2012", "Naxçıvan Open-2013" Beynəlxalq Şahmat festivalları muxtar respublikanın beynəlxalq yarışların keçirilməsində hansı imkanlara malik olduğunu bir daha dünyaya nümayiş etdirdi. Festivallar yüksək səviyyədə təşkil edilmişdi. Yarışlar barədə beynəlxalq şahmat aləmində çox yaxşı fikir yaranmışdı və dünya çempionatları içərisində Naxçıvanda keçirilən bu yarışlar ən yaxşılardan biri sayılmışdı. Onu da deyim ki, belə açıq festivallarda çox nadir hallarda tanınmış, yüksək reytinqli şahmatçıları görmək olar. Ancaq Naxçıvan keçirilən bu festivalların yüksək səviyyədə təşkili ilə dünyanın məşhur, tanınmış şahmatçılarını cəlb edə bildi. Səviyyəli idmançılar bu festivallarda yarışıblar. Bu gün isə muxtar respublika "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalına ev sahibliyi edir. Burada iştirak edən şahmatçılar da deyirlər ki, belə gözəl, hər cür imkanlara malik Şahmat Mərkəzini çox az ölkədə görmək olar. Dünyanın müxtəlif guşələrindən gəlmiş şahmatçıların yüksək səviyyədə qarşılanması, onların asudə vaxtlarının təşkili istiqamətində görülən işlər qonaqlarda xoş təəssüratlar yaradıb. Onlar bir daha görürlər ki, Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevə nə qədər dərin hörmət və ehtiram var, dahi rəhbərin xatirəsinə həsr edilən festivalda hər bir kiçik təfərrüata xüsusi diqqət yetirilib, təşkilatçılıq zərgər dəqiqliyi ilə aparılıb. Məncə, bu, blokadada olan Naxçıvan üçün böyük nailiyyətdir və festivalın əhəmiyyətini son dərəcə artırır. Naxçıvanı dünyadan ayrı salmaq istəyənlərə ən yaxşı cavabı da elə Naxçıvan özü verir: idman, mədəniyyət, incəsənət və digər sahələrdəki uğurları ilə yalnız fiziki blokadada olduğunu bütün dünyaya sübut edir, mənən bütün sərhədləri aşır, inkişaf edən dünyaya inteqrasiya olunur. "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalı buna əyani sübutdur.

***Anton Korobov qrossmeyster, Ukrayna:***



– Mən "Naxçıvan Open-2011" Beynəlxalq Şahmat Festivalının qalibi kimi festivalın kubokunun sahibiyəm və festivalın kubokunu mənə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov təqdim edib. O zaman mən çıxış edərək festivalın ənənəvi olmasını arzulamışdım və yarışın təşkilatçılarına minnətdarlığımı bildirmişdim. Çox şadam ki, arzularım gerçəkləşdi və görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə keçirilən bu festivalda yenidən iştirak edirəm. Beynəlxalq festivalın mənim üçün ən böyük əhəmiyyəti bu festivalın müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilməsidir. Naxçıvanı hər zaman xoş xatirələrlə yada salıram və inanıram ki, bu dəfə də belə olacaq. Ona görə ki, burada biz şahmatçılar üçün yaxşı şərait yaradılıb və asudə vaxtımız da səmərəli təşkil edilib. Naxçıvan bir şahmatçı üçün ideal məkandır. Hər yer sakit və təmizdir. İnsan özünü çox rahat hiss edir. Bizə yaradılan şəraitə görə şahmatçı yoldaşlarım adından minnətdarlığımı bildirirəm.

Naxçıvan şəhərinə gəldikdə isə deyə bilərəm ki, şəhər ilbəil dəyişilir və gözəlləşir. Bu, inkişafın göstəricisidir. Mən elə hiss edirəm ki, bu diyara birinci dəfədir, gəlirəm. Onu da deyim ki, bu qədim diyarda şahmata böyük maraq var. Festivalın keçirilməsi üçün hərtərəfli hazırlıq da yüksək səviyyədədir. Bu səbəbdən də dünyanın müxtəlif ölkələrindən buraya öz gücünü sınamağa gəlmiş şahmatçılar razılıq edirlər. Bu dəfə festivala dəvət alanda çox sevindim. Ona görə sevindim ki, köhnə dostlarımı görmək, onlarla ünsiyyətdə olmaq imkanı əldə edirəm. Muxtar respublika bu festivalla dünyanın müxtəlif ölkələrindən gələn insanları bir araya toplayıb. Bu, məncə, böyük nailiyyətdir. Bir də ona görə məmnunam ki, Naxçıvan bizi yenə böyük qonaqpərvərliklə qarşıladı.

# Beynəlxalq şahmat festivalının ilk turunun nəticələri məlum olub



Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalının ilk qarşılaşmalarına dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində start verildi. Yarış başlanmazdan əvvəl mərhum şahmatçımız Vüqar Həşimovun xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Şahmat festivalının baş hakimi Faiq Həsənov yarışın qaydaları haqqında iştirakçılara məlumat verərək onlara uğurlar arzuladı.

Ən yuxarı reytinq əmsalı 1771 olan Azərbaycan şahmatçısı Ayan Allahverdiyevanın yarışdığı "C" qrupunda birinci turdan Naxçıvan təmsilçilərindən Müslüm Əliyev, Sadiq Abbasov, Aqşin Abbaszadə, Əli Zeyniyev və başqaları 1 xalla ayrıla bildilər. "B" qrupunda Naxçıvan şahmatçılarından Pərviz Qasımov, Sadiq Məmmədov, Adil Sevdimalıyev, Tural Zeynalov, Orxan Həsənov və başqaları ilk turdan xalla ayrılmaq üçün mübarizə apardılar. Qeyd edək ki, digər qruplardan fərqli olaraq, bu qrupda Naxçıvan təmsilçiləri uğurlu çıxış edərək turdan uğurla ayrıla bildilər. Belə ki, muxtar respublika şahmatçısı Adil Sevdimalıyev Lana Əfəndiyevanı, Tural Zeynalov Rüfət Əmrəliyevi, Orxan Həsənov Bahəddin Hətəmovu, Kamil Rzayev Elvin Namazlını mat edə bildi.

Ağ-qara taxtada ən yüksək reytinq əmsalı 2696 olan zəka ustalarının yarışdığı "A" qrupunda Naxçıvan təmsilçisi Talıb Babayev Ukrayna təmsilçisi Anton Korobova məğlub oldu. Digər bir muxtar respublika şahmatçısı, reytinq əmsalı 2354 olan Ürfan Sevdimalıyev Azərbaycan təmsilçisi, reytinq əmsalı 2660 olan Rauf Məmmədovla görüşdən yarım xalla ayrıldı.

✍ **Səbuhi HÜSEYNOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 400**